Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# İlk Pasxa



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest; Alastair Paterson

Uyğunlaşdıran: Lyn Doerksen

Tərcümə edən: Günay  Karaağac

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Qadın səsli-küylü təpədə durdu, onun kədərli gözləri dəhşətli səhnəyə baxırdı. Onun Oğlu ölürdü.



Bu ana Məryəm idi və o, İsanın çarmıxa çəkildiyi yerə yaxın durdu.





Bütün bunlar necə baş verdi? İsa bu cür gözəl həyatı necə belə dəhşətli yolla bitirə bilərdi?



Allah Öz Oğlunun ölməsi üçün çarmıxa mismarlanmasına necə izin verə bildi?



İsa Kim olması haqqında nəsə bir səhv etmişdir? Allah müvəffəqiyyətsizliyə uğradı?



Xeyr! Allah müvəffəqiyyətsizliyə uğramadı. İsa heç bir səhv etməmişdi. İsa zalım insanlar tərəfindən çarmıxa çəkiləcəyini həmişə bilirdi.



İsa hətta körpə olarkən, Şimon adlı yaşlı adam Məryəmə qarşıda olacaq kədər haqqında demişdir.



İsanın
ölməsindən
bir neçə gün
əvvəl bir qadın
irəli çıxdı və ətirli yağı
Onun ayaqlarına tökdü.



"O, pulu
boş yerə sərf
edir", şagirdlər
deyindilər. "O,
yaxşı iş gördü",
İsa dedi. "O, bunu
Mənim dəfnim üçün etdi".
Necə də qəribə sözlərdi bunlar!

Bundan sonra İsanın on iki şagirdindən biri olan Yəhuda 30 gümüş pula İsanı baş kahinə satmağa razılaşdı.





Yəhudilərin Pasxa bayramında İsa Öz şagirdləri ilə son şam yeməyini yedi. O, onlara Allah və Onu sevənlər üçün olan gözəl vədləri haqqında danışdı.



Sonra İsa bölüşmək üçün onlara çörək və kasa verdi. Bu, İsanın bədəninin və qanının günahların bağışlanmasını onlara xatırlatmaq üçün idi.

Sonra İsa Öz dostlarına ələ veriləcəyini və onların Onu tərk edəcəyini söylədi. “Mən tərk etməyəcəyəm”, Peter təkid etdi.  “Xoruz banlamazdan əvvəl sən üç dəfə Məni inkar edəcəksən”, İsa dedi.





Həmən günün axşamı, İsa dua etmək üçün Zeytun dağına getdi. Onunla olan şagirdlər yuxuya getdilər.



“Ey Ata”, İsa dua etdi, “..Qoy bu kasa Məndən uzaqlaşsın. Amma Mənim yox, Sənin iradən olsun”.

Qəflətən Yəhudanın başçılığı ilə izdiham bağa gəldi.  İsa müqavimət göstərmədi, lakin Peter bir adamın qulağını kəsdi.
İsa sakitcə adamın qulağına toxundu və ona şəfa verdi.  İsa bilirdi ki, Onun həbsi Allahın iradəsinin bir hissəsi idi.




İzdiham İsanı baş kahinin
evinə apardı. Orada
Yəhudi rəhbərlər
İsanın öləcəyini
dedilər.

Peter yaxınlıqda qarabaşın tonqalının
yanında durmuşdu
və baş verənləri
izləyirdi.



Üç dəfə adamlar Peterə baxdılar və dedilər: “Sən İsa ilə idin!” Peter üç dəfə, İsanın dediyi kimi, bunu inkar etdi. Peter hətta söyüş söyüb and da içdi.



# QUK-KULU-QUU



Elə o anda xoruz banladı. Bu, Peterə Allahın səsi kimi idi. İsanın sözlərini xatırlayaraq, Peter acı-acı ağladı.


Yəhuda da peşman olmuşdu.  O bilirdi ki, İsa heç bir cinayət işində günahlı deyildi.


Yəhuda 30 gümüş pulu geri qaytardı, lakin kahin onu geri götürmədi.


Yəhuda pulu yerə atdı, çölə çıxdı və özünü asdı.



Kahinlər İsanı Roma hökmdarı olan Pilatın yanına gətirdilər. Pilat dedi: “Mən Onda heç bir təqsir görmədim”.



Lakin izdiham uca səslə tələb edirdi: “Onu çarmıxa çək! Onu çarmıxa çək!”

Nəhayət, Pilat onların
tələbini yerinə yetirmək
qərarına gəldi və İsanı
çarmıxda ölümə
məhkum etdi.



Onlar uzun uclu iti
tikanlardan tac hördülər
və Onun başına qoydular.
Sonra Onu ölmək
üçün taxta çarmıxa
mismarladılar.





İsa belə yolla öləcəyini həmişə bilirdi. O, həmçinin, bilirdi ki, Onun ölümü Ona iman edən günahkarlar üçün bağışlanma gətirəcək.



İki cinayətkar İsanın yanında çarmıxa çəkilmişdi. Biri İsaya inandı və Cənəttə getdi. Digəri isə inanmadı.




Saatlarla əzab çəkdikdən sonra İsa dedi: “Tamam oldu” və öldü. Onun işi başa çatdırıldı.
Dostları Onu xüsusi bir məzara qoydular.

Sonra Roma əsgərləri məzarı möhürlədilər və onu qorudular.



İndi heç kim
ora girə, yaxud
oradan çıxa
bilməzdi.




Əgər bu hekayənin sonu olsaydı, onda bu necə də kədərli son olardı.
Dostları Onu xüsusi bir məzara qoydular.


Lakin Allah gözəl bir şey etdi.  İsa ölü olaraq qalmadı!


Həftənin ilk günü səhər
tezdən İsanın bəzi
şagirdləri məzarın
girişindəki
daşın yerindən
çəkildiyini gördülər.

Onlar içəri baxanda
İsa orada yox
idi.



Bir qadın ağlayaraq məzarın yanında qaldı. İsa ona göründü! O sevinərək digər şagirdlərə demək üçün tələsdi.




"İSA SAĞDIR!  İSA
ÖLÜLƏR ARASINDAN
DİRİLMİŞDİR!"



Tezliklə İsanın Özü şagirdlərin yanına gəldi və onlara mismarla deşilmiş əllərini göstərdi.
Bu, həqiqət idi.  İSA YENİDƏN SAĞ İDİ!



O, Peteri Onu inkar etdiyinə görə bağışladı və Öz şagirdlərinə hər bir kəsə Onun haqqında demələrini tapşırdı.  Sonra O, ilk Milad günü gəldiyi yerə, göylərə qayıtdı.

# İlk Pasxa

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Matta 26-28, Luka 22-24, Yəhya 13-21

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**